**Vəkillərin rolu haqqında Əsas Prinsiplər**

*07 sentyabr 1990-cı ildə Kubanın paytaxtı Havana şəhərində keçirilmiş Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Səkkizinci Konqresi tərəfindən qəbul edilmişdir.*

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində dünya xalqlarının, xüsusilə irqi, cinsi, dil və ya dini fərqlər zəminində ayrı-seçkiliyə yol verilmədən insan hüquqlarına və əsas azadlıqlara hörmətin təşviqində və aşılanmasında beynəlxalq əməkdaşlığa nail olmanı öz məqsədlərindən biri kimi bəyan etdiklərini, və ədalətin təmin oluna biləcəyi şəraiti yaratmaq üçün qətiyyət göstərdiklərini nəzərə alaraq,

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası kimi prinsiplərin, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq məhkəmə baxışı hüququnun və cinayət törətməkdə ittiham olunan hər hansı bir şəxsin müdafiəsi üçün bütün lazımi təminatların təsbit olunduğunu nəzərə alaraq,

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda əlavə olaraq əsassız gecikmə olmadan mühakimə olunmaq hüququnun və qanunla yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq məhkəmə baxışının keçirilməsi hüququnun təsbit olunduğunu nəzərə alaraq,

dövlətlərin insan hüquq və azadlıqlarına hamılıqla hörmət və riayət edilməsini təşviq etmək öhdəliyinini İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın tanıdığını nəzərə alaraq,

Hər hansı bir formada tutulan və ya həbs olunan bütün şəxslərin qorunması haqqında Əsas Prinsiplər Toplusunda saxlanılan şəxsin vəkilin köməyindən istifadə etmək, ona müraciət etmək və məsləhətləşmək hüququna malik olmasının qeyd olunduğunu nəzərə alaraq,

Məhbuslarla rəftarın Minimal Standart qaydalarında həbsdə saxlanılan şübhəli şəxslərə hüquqi yardımın və onların vəkillə konfidensial ünsiyyətinin təmin edilməsinin xüsusilə tövsiyə olunmasını nəzərə alaraq,

Beynəlxalq Mülki və Siyasi Hüquqlar Paktının 14-cü maddəsinə uyğun olaraq ölüm cəzası ilə üzləşən şəxslərin müdafiəsini təmin edən Tədbirlərdə ölüm cəzası təyin oluna biləcək, cinayəti törətməkdə şübhəli bilinən və ya təqsirləndirilən hər kəsin məhkəmə prosesinin bütün mərhələlərində müvafiq hüquqi yardım almaq hüququna malik olmasının təsbit olunduğunu nəzərə alaraq,

Cinayət və Vəzifə Səlahiyyətlərindən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas prinsiplərinə dair Bəyannamədə cinayət qurbanlarının ədalət mühakiməsinə və ədalətli rəftar, restitusiya, kompensasiya və yardıma çıxış imkanlarını artırmaq üçün beynəlxalq və milli səviyyələrdə müvafiq tədbirlərin görülməsinin tövsiyə olunduğunu nəzərə alaraq,

İqtisadi, sosial və mədəni, yaxud mülki və siyasi olmasından asılı olmayaraq, hər kəsin malik olduğu insan hüquqlarının və əsas azadlıqların lazımi şəkildə qorunmasını təmin

etmək üçün hər kəsin müstəqil hüquq mütəxəssisləri tərəfindən təmin edilmiş hüquqi xidmətlərə səmərəli çıxış əldə etməsinin vacibliyini nəzərə alaraq,

Vəkillərin peşə birliklərinin peşə standartlarının və etikasının təşviqində, öz üzvlərini təzyiqlərdən, qanunsuz məhdudiyyətlərdən və hüquqlarının pozulmasından qorumaqda, ehtiyacı olan hər kəsə hüquqi xidmətlər göstərməkdə, hökümət və digər qurumlarla əməkdaşlıq etməkdə, ədalət mühakiməsinin məqsədlərinin həyata keçirilməsini təşviq etməkdə və dövlət maraqlarını qorumaqda əsas rol oynadıqlarını nəzərə alaraq,

Üzv dövlətlərə vəkillərin öz vəzifələrini lazımi şəkildə yerinə yetirmələrini təşviq və təmin etmək  məsələlərində kömək etmək üçün tərtib edilmiş aşağıdakı Vəkillərin Rolu haqqında Əsas Prinsiplərə hökumətlər tərəfindən milli qanunvericilikləri və təcrübələri çərçivəsində hörmət edilməli, nəzərə alınmalı və vəkillərin, eləcə də hakimlərin, prokurorların, icra və qanunvericilik orqanlarının üzvlərinin və geniş ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Bu prinsiplər, müvafiq hallarda, rəsmi vəkil statusu olmadan belə funksiyalarını yerinə yetirən hüquqşünaslara də şamil olunur.

## Vəkillərə və hüquq xidmətlərinə çıxış

1. Hər kəs cinayət işinin bütün mərhələlərində özünü müdafiə etmək və hüquqlarını təsbit etmək və qorumaq üçün seçdikləri vəkilə müraciət etmək hüququna malikdir.

2. Hökümətlər irq, dərinin rəngi, cins, dil, din, siyasi və ya digər əqidəyə, milli, sosial və ya etnik mənşəyə, əmlakına, doğumuna, iqtisadi və ya digər statusuna görə hər hansı ayrı-seçkiliyə yol vermədən öz ərazilərində və yurisdiksiyalarına tabe olan bütün şəxslər üçün vəkillərə səmərəli və bərabər çıxış üçün effektiv prosedurların və çevik mexanizmlərin əlçatanlığını təmin etməlidir.

3. Hökümətlər yoxsullara və zərurət yarandıqda digər aztəminatlı şəxslərə hüquqi xidmətlər üçün kifayət qədər maliyyə və digər resursların təmin edilməsinə şərait yaradırlar. Vəkillərin peşə birlikləri xidmətlərin, vəsaitlərin və digər resursların təşkil və təmin edilməsində əməkdaşlıq etməlidir.

4. Hökümətlər və vəkillərin peşə birlikləri qanunla müəyyən edilmiş hüquq və vəzifələri və vəkillərin əsas azadlıqlarının qorunmasında mühüm rolu barədə ictimaiyyəti məlumatlandırmaq üçün proqramların həyata keçirilməsini təşviq etməlidirlər. Yoxsullara və digər aztəminatlı şəxslərə öz hüquqlarını müdafiə etmək və lazım gəldikdə hüquqi yardım almaq üçün vəkillərə müraciət etmək imkanlarının yaradılmasına xüsusi diqqət yetirilməlidir.

## Cinayət mühakiməsi məsələlərində xüsusi təminatlar

5. Hökümətlər bütün şəxslərin tutulduqda, həbs olunduqda və ya cinayət törətməkdə ittiham edildikdə öz seçdikləri vəkildən kömək almaq hüququ barədə səlahiyyətli orqan tərəfindən dərhal məlumatlandırılmalarını təmin etməlidirlər.

6. Vəkili olmayan bütün şəxslər ədalət mühakiməsinin maraqlarının tələb etdiyi bütün hallarda, belə xidmətlərin ödənilməsi üçün kifayət qədər vəsaiti olmadığı təqdirdə, onlara təyin olunmuş ödənişsiz səmərəli hüquqi yardım göstərmək məqsədilə müvafiq cinayətin xarakterinə uyğun təcrübə və səlahiyyətə malik olan vəkilin yardımından istifadə etmək hüququna malikdirlər.

7. Hökümətlər bundan əlavə, cinayət ittihamı ilə və ya cinayət ittihamı olmadan həbs edilmiş və ya tutulmuş bütün şəxslərin istənilən halda həbs edildiyi və ya tutulduğu vaxtdan 48 saatdan gec olmayaraq vəkilləri ilə əlaqə saxlamalarını təmin etməlidirlər.

8. Bütün həbs edilmiş, tutulmuş və ya azadlıqdan məhrum edilmiş şəxslər təxirə salınmadan, dinlənilmə və ya senzura olmadan və tam konfidensial qaydada vəkili ilə görüşmək, onunla əlaqə saxlamaq və məsləhətləşmək üçün müvafiq imkan, vaxt və şəraitlə təmin edilməlidir. Bu cür məsləhətləşmələr hüquq-mühafizə orqanlarının əməkdaşlarının eşitmə imkanları olmadan, lakin onların iştirakı ilə aparıla bilər.

## Peşə hazırlığı və təlim

9. Hökümətlər, vəkillərin peşə birlikləri və təhsil müəssisələri vəkillərin müvafiq təhsilə və hazırlığa malik olmalarını və peşə idealları və mənəvi vəzifələri, milli və beynəlxalq hüquqla tanınan insan haqları və əsas azadlıqlar barədə məlumatlandırılmalarını təmin etməlidir.

10. Hökümətlər, vəkillərin peşə birlikləri və təhsil müəssisələri vəkilin müvafiq ölkənin vətəndaşı olması tələbini ayrı-seçkilik hesab etməmək şərti ilə, irq, dərinin rəngi, cins, din, siyasi və ya digər əqidəyə, milli, sosial və ya etnik mənşəyə, əmlakına, doğumuna, iqtisadi və ya digər statusuna görə vəkillik peşəsi ilə məşğul olmaq və ya davam etdirməklə bağlı hər hansı bir şəxsə qarşı ayrı-seçkiliyin olmamasını təmin etməlidir.

11. Hüquqi xidmətlərə olan ehtiyacları ödənilməyən qrupların, icmaların və ya regionların mövcud olduqları ölkələrdə, xüsusən də belə qrupların fərqli mədəniyyətlərə, adət-ənənələrə və ya dillərə malik olduqları və ya keçmişdə ayrı-seçkiliyin qurbanı olduqları hallarda, hökümətlər, vəkillərin peşə birlikləri və təhsil müəssisələri bu qruplardan olan namizədlərə vəkillik peşəsinə yiyələnməyə imkanlar yaratmaq üçün xüsusi tədbirlər görməli və onların öz qruplarının ehtiyaclarına uyğun təlim almalarını təmin etməlidirlər.

## Vəzifə və məsuliyyətlər

12. Vəkillər ədalət mühakiməsinin həyata keçirilməsinin əsas nümayəndələri kimi öz peşələrinin şərəf və ləyaqətini daim qorumalıdırlar.

13. Müştərilərinə olan münasibətdə vəkillərin vəzifələrinə aşağıdakılar daxildir:

(a) Müştərilərə onların qanuni hüquq və öhdəlikləri və onların qanuni hüquq və öhdəliklərinə uyğun gələn hüquq sisteminin işinə dair məsləhətlər vermək;

(b) Müştərilərə hər cür yardım etmək və onların maraqlarını qorumaq üçün hüquqi tədbirlər görmək;

(c) Müvafiq hallarda məhkəmələr, tribunallar və ya inzibati orqanlar qarşısında müştərilərə yardım etmək.

14. Vəkillər müştərilərinin hüquqlarını müdafiə və ədalət mühakiməsini təşviq edərkən milli və beynəlxalq hüquq tərəfindən tanınan insan haqlarını və əsas azadlıqlarını müdafiə etməyə çalışmalı və hər zaman hüquq peşəsinin standartları və etikası çərçivəsində qanuna uyğun olaraq azad və səylə hərəkət etməlidirlər.

15. Vəkillər hər zaman öz müştərilərinin maraqlarına sədaqətlə hörmət etməlidirlər.

**Vəkillərin fəaliyyəti ilə bağlı təminatlar**

16. Hökümətlər, vəkillərin (a) hədə-qorxu, maneə, təqib və ya qanunsuz müdaxilə olmadan bütün peşəkar funksiyalarını yerinə yetirə bilmələrini; (b) həm öz ölkəsində, həm də xaricdə sərbəst səyahət edə və müştəriləri ilə məsləhətləşə bilmələrini; (c) qəbul olunmuş peşə vəzifələrinə, standartlara və etikaya uyğun olaraq həyata keçirilən hər hansı hərəkətə görə təqib və ya inzibati, iqtisadi və ya digər sanksiyalara məruz qalmamaları və ya təhdid edilməmələrini təmin etməlidirlər.

17. Vəkillər öz funksiyalarını icra etmələri nəticəsində onların şəxsi təhlükəsizliyinə təhlükə yarandıqda onlar hakimiyyət orqanları tərəfindən müvafiq şəkildə qorunmalıdırlar.

18. Vəkillər öz funksiyalarını yerinə yetirmələri nəticəsində öz müştəriləri və ya müştərilərinin maraqları ilə eyniləşdirilməməlidirlər.

19. Hüquqi yardım almaq hüququnu tanıyan heç bir məhkəmə və ya inzibati orqan, milli qanunvericiliyə və təcrübəyə uyğun olaraq və bu prinsiplərə əsasən vəkilin öz peşə vəzifələrini yerinə yetirmək hüququndan məhrum edildiyi hallar istisna olmaqla, vəkilin öz müştərisinin maraqlarını onun qarşısında müdafiə etmək hüququnu tanımaqdan imtina etmir.

20. Vəkillər məhkəmə, tribunal və ya digər hüquqi və ya inzibati orqan qarşısında yazılı və ya şifahi çıxışlarında və ya məhkəmə qarşısında peşə vəzifələrini yerinə yetirərkən vicdanla verdiyi müvafiq bəyanatlara görə mülki və cinayət prosesində immunitetlərə malikdirlər.

21. Səlahiyyətli orqanlar vəkillərin öz müştərilərinə səmərəli hüquqi yardım göstərmələrini təmin etmək üçün onların sahib olduqları və ya nəzarətində olan müvafiq məlumatlara, dosyelərə və sənədlərə kifayət qədər vaxt ərzində çıxışını təmin etməlidirlər. Bu cür giriş mümkün olan ən tez zamanda təmin edilməlidir.

22. Hökumətlər vəkillər və onların müştəriləri arasında peşə münasibətləri çərçivəsində bütün ünsiyyətin və məsləhətləşmələrin məxfiliyini tanımalı və hörmət etməlidirlər.

## Söz və birləşmək azadlığı

23. Vəkillərin digər vətəndaşlar kimi söz, vicdan, birləşmək və toplaşmaq azadlıqları vardır. Xüsusilə, onlar qanuna, ədalət mühakiməsinin həyata keçirilməsinə və insan hüquqlarının təşviqi və müdafiəsinə həsr olunan ictimai müzakirələrdə iştirak etmək və yerli, milli və ya beynəlxalq təşkilatlara qoşulmaq və ya belə təşkilatlar yaratmaq, qanuni fəaliyyət və ya qanuni təşkilata üzvlük səbəbindən əlverişsiz vəziyyətə məruz qalmadan peşə fəaliyyətləri məhdudlaşdırılmadan onların iclaslarında iştirak etmək hüququna malikdirlər. Bu hüquqlardan istifadə edərkən vəkillər həmişə qanuna və vəkillik peşəsinin qəbul olunmuş standartlarına və etikasına uyğun davranmalıdırlar.

## Vəkillərin peşə birlikləri

24. Vəkillər öz maraqlarını təmsil etmək, onların davamlı təhsil və peşə hazırlıqlarını təşviq etmək və peşə maraqlarını qorumaq üçün müstəqil peşə birlikləri yaratmaq və onlara qoşulmaq hüququna malikdirlər. Vəkillərin peşə birliklərinin icra orqanı onların üzvləri tərəfindən seçilir və öz funksiyalarını kənardan müdaxilə olmadan yerinə yetirir.

25. Vəkillərin peşə birlikləri hər kəsin hüquqi xidmətlərə səmərəli və bərabər çıxışının olmasını və vəkillərin qanuna və qəbul olunmuş peşə standartlarına və etikaya uyğun olaraq qanunsuz müdaxilə olmadan öz müştərilərinə məsləhət vermək və yardım etmək imkanına malik olmalarını təmin etmək üçün hökümətlərlə əməkdaşlıq edirlər.

## İntizam tədbirləri

26. Vəkillərin peşə davranış qaydaları vəkillər tərəfindən onların müvafiq orqanları vasitəsilə və ya müvafiq qanunvericiliklə milli qanunvericiliyə, adətlərə və qəbul olunmuş beynəlxalq standartlara və normalara uyğun olaraq müəyyən edilir.

27. Vəkillərə qarşı peşə fəaliyyəti ilə əlaqədar irəli sürülən ittihamlar və ya şikayətlər müvafiq prosedurlar əsasında tez və ədalətli şəkildə baxılır. Vəkillər işin ədalətli araşdırılması hüququna, o cümlədən seçdikləri vəkildən yardım almaq hüququna malikdirlər.

28. Vəkillərə qarşı intizam tədbirləri vəkillər tərəfindən yaradılmış qərəzsiz intizam komitəsi, müstəqil qanunvericilik orqanı və ya məhkəmə qarşısında və müstəqil məhkəmə nəzarəti altında həyata keçirilir.

29. Bütün intizam tədbirləri peşə davranış qaydalarına və vəkillik peşəsinin digər qəbul olunmuş standartlarına və etikasına uyğun olaraq və bu prinsiplər nəzərə alınmaqla müəyyən edilir.